

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 88 (22.999)

*11 may 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə ümummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin xatirəsini ehtiramla anıb.

Həmin gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər.



## Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü qeyd olunub







Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, baş idarələrin və müəssisələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri, ulu öndərin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən "Qurtuluşdan Əlincəqalaya" yürüşünün iştirakçısı olan gənclər də abidə önünə tər güllər düzmüşlər.

Müstəqil və qüdrətli Azərbaycan dövlətinin yaradıcısı, ulu öndər Heydər Əliyevin anadan olmasından 95 il ötür. Ölkəmizə rəhbərlik dövrü böyük quruculuq, inkişaf, sabitlik və tərəqqi illəri kimi tarixə yazılan, ən çətin məqamlarda xalqın köməyinə çatan, Azərbaycanı məhv olmaq, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsindən xilas edən dahi rəhbərin mənalı ömür yolu bir məqsədə – xalq və Vətən naminə fəaliyyətə həsr olunmuşdu.

Azərbaycanın müstəqil dövlət quruculuğunun əsası dahi öndərin ölkəmizə birinci rəhbərliyi dövründə qoyulmuşdur. 1969-1982-ci illərdə ulu öndər Azərbaycanı dinamik inkişaf yoluna çıxarmış, yeni zavodlar, fabriklər, böyük sənaye müəssisələri tikilmiş, yollar çəkilmiş, məktəb binaları, xəstəxanalar, mədəniyyət obyektləri istifadəyə verilmişdi. İmperiya təzyiqlərinə baxmayaraq, milli ruhun və milli özünüdərkin dirçəldilməsi, milli dəyərlərimizin, adət-ənənələrimizin təbliği və qorunub-saxlanılması, gənclərin tarixi ənənələrimizə və dəyərlərimizə bağlı yetişdirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüşdür.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrildi, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımlar atıldı. Görkəmli dövlət xadiminin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi Azərbaycanın müstəqil dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Həmin dövrdə ulu öndərin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi qədim diyarı işğaldan, əhalini isə köçkün taleyi yaşamaqdan xilas etdi. Naxçıvan Muxtar Respublikası işğal təhlükəsindən xilas olaraq dövlət müstəqilliyimiz və milli qurtuluşumuz uğrunda gedən mübarizənin mərkəzinə çevrildi.

Ümummilli liderin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın qurtuluş və inkişaf tarixində yeni mərhələnin əsasını qoydu. ***"Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı xalqın azadlığına həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm"***, – deyən ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində ölkəmiz parçalanmaqdan, vətəndaş müharibəsindən qurtuldu, Azərbaycanda milli-ideoloji birliyin təməli qoyuldu, güclü ordu yaradıldı, möhkəm və davamlı quruculuq yolu müəyyənləşdirildi, torpaqlarımızın işğalının qarşısı alındı. Qanunların aliliyinə söykənən vətəndaş cəmiyyəti quruldu. Dahi liderin fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrildi.

Bu gün Azərbaycanın müstəqillik tarixinin ən parlaq səhifələri yazılır. Ölkəmizdə ulu öndərin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb. Güclü ordu və möhkəm iqtisadi potensial Azərbaycanı bölgədə və dünyada etibarlı tərəfdaşa və lider ölkəyə çevirib. Azərbaycan beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, nüfuzlu tədbirlərə ev sahibliyi edir, inkişafın bütün istiqamətləri üzrə öz modelini ortaya qoyur. Bütün bunlara isə ölkəmizdə Heydər Əliyev yolunun uğurla davam və inkişaf etdirilməsi nəticəsində nail olunub. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir. Bizim yolumuz şərəfli yoldur, ləyaqətli yoldur, müstəqillik yoludur. Eyni zamanda, bu, uğur gətirən yoldur. Çünki həyat və Azərbaycanın dünya miqyasındakı indiki rolu göstərir ki, bu, yeganə düzgün siyasətdir".***

Bu gün ulu öndər Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da davamlı inkişaf yolundadır. Ümummilli liderin ideyalarına sədaqət Naxçıvan Muxtar Respublikasını hərtərəfli inkişafa qovuşdurub. Ötən illər ərzində muxtar respublikada elm, təhsil, mədəniyyət, kənd təsərrüfatı, ordu quruculuğu və digər sahələrdə əsaslı irəliləyişə nail olunub. Naxçıvan şəhərində, rayon mərkəzlərində, eləcə də ucqar dağ və sərhəd kəndlərində müasir infrastrukturun yaradılması, yolların və körpülərin salınması yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, insanlara rahatlıq və firavan həyat bəxş edib.

Heydər Əliyev siyasi xətti müstəqil Azərbaycanın dünənini və bu gününü yaşadan, gələcək inkişafına etibarlı zəmin yaradan dövlətçilik yoludur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir. Bu böyük şəxsiyyətin Azərbaycan naminə gördüyü işlər ölkəmizin milli sərhədlərini aşaraq bütövlükdə regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Təsadüfi deyil ki, məşhur dövlət və ictimai xadimlər ulu öndərimizi iyirminci əsr dünya siyasi fikir tarixinin canlı əfsanəsi adlandırırdılar. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullara layiq görülmüşdür. Onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının ümummilli lideri adını qazanmasıdır".***

Mayın 10-da Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ümummilli lider Heydər Əliyevə həsr olunmuş rəsm sərgisinin açılışı olub





Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş rəsm sərgisi açılıb.

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsm sərgisinə baxıb.

Məlumat verilmişdir ki, sərgidə 32 rəssamın ulu öndərə həsr olunmuş portretləri, Naxçıvan Muxtar Respublikasının tarixi abidələrini, təbiətini və müasir inkişafını əks etdirən mənzərə, natürmort, qarışıq kompozisiya janrlarında çəkilmiş 100-ə yaxın rəsm əsəri, eləcə də maket və dekorativ fiqurlar nümayiş olunur.



Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın “Naxçıvan bəşəriyyətin beşiyi”, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamlarından Həbibə Allahverdiyevanın, Həmzə Sadiqovun, Əli Səfərlinin ümummilli liderə həsr olunmuş əsərləri, Paşa Rəhimovun “Ümummilli liderin mənzərə fonunda portreti”, Eldar Zeynalovun “Mənalı ömür”, Qəhrəman Tağıyevin “Naxçıvan”, gənc rəssamlardan Arzu Novruzovun, Ləman Məmmədovanın, Tural Rəhimovun və digər rəssamların əsərləri maraqla qarşılanmışdır.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin muncuqla işlənmiş portretini Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə hədiyyə etmişdir.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş sərgidə nümayiş olunan əsərlərin məzmun və xaraktercə düzgün seçildiyini, rəssamların ulu öndərə olan ehtiramının hər bir əsərdə ifadə olunduğunu bildirmiş, sərginin təşkilatçılarına və rəssamlara təşəkkür etmişdir.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva rəssamların fəaliyyəti üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası gənclərinin “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüşü təşkil edilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilən “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq muxtar respublika gənclərinin “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüşü təşkil olunub. Yürüş iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.***

Əlincəqaladakı Dövlət Bayrağının önündə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Anar Babayev bildirib ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyev bəşəriyyətin yetirdiyi dahi şəxsiyyətlərdəndir. Azərbaycanda gənclər siyasətinin formalaşmasının, gənclərə dövlət səviyyəsində diqqət və qayğının göstərilməsinin əsası da ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Görkəmli dövlət xadimi ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlamdüşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. Ulu öndərin rəhbərliyi ilə hələ ötən əsrin 70-80-ci illərində Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasının əsası qoyulmuşdur.

Anar Babayev vurğulayıb ki, ümummilli lider Heydər Əliyev müstəqillik illərində də gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunmasını, onların sosial problemlərinin həllini diqqətdə saxlamış, görkəmli dövlət xadiminin rəhbərliyi ilə gənclərlə iş sahəsində dövlət orqanları yaradılmış, zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ümummilli liderimizin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmiş, bir il sonra isə “2 fevral – Gənclər Günü” təsis edilmişdir. ***“Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik”***, – deyən ümummilli lider Heydər Əliyevin gənclər siyasətinin əsas məqsədi milli dəyərlərə söykənən, Vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsi olmuşdur.



“Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində gənclərin sağlam, vətənpərvər ruhda formalaşmaları, yüksək səviyyədə təhsil almaları, cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək, onların sosial problemlərinin həlli, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi üçün ardıcıl tədbirlər görülür”, – deyən Gənclər Fondunun icraçı direktoru diqqətə çatdırıb ki, gənclərlə bağlı həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, bu gün gənclər öz intellektual səviyyələri, bilik və bacarıqları ilə seçilir, mötəbər tədbirlərdə xalqımızı layiqincə təmsil edir, beynəlxalq idman yarışlarında Azərbaycan bayrağını ən yüksək kürsülərdə dalğalandırırlar. Görülən bu işlərin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar gənclərin “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüşü dərin məna kəsb edir. Ona görə ki, müstəqillik illərində Azərbaycan gənci məhv olmaq təhlükəsindən yenilməzliyə qədər inkişaf yolu keçmişdir. Bu gün Azərbaycan gəncliyinin qazandığı bütün uğurların təməlində ümummilli liderimiz Heydər Əliyevin ideyaları dayanır.



Sonra ümummilli liderə həsr olunmuş seir bədii qiraət olunub, Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında mahnılar dinlənilib.

Tədbir iştirakçıları “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyində də olublar.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

**Ceyhun MƏMMƏDOV**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü muxtar respublikamızda bayram əhval-ruhiyyəsi ilə qeyd edilib

## Şərur rayonu



*Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti boyu ölkəmizdə həyata keçirdiyi hərtərəfli islahatlar respublikamızın digər bölgələrində olduğu kimi, Şərur rayonunda da silinməz izlər qoyub. Rayon sakinləri ulu öndərin rəhbərliyi ilə 1969-1982-ci və 1993-2003-cü illərdə həyata keçirilən tədbirləri bu gün də minnətdarlıq hissi ilə xatırlayırlar.*

Rayon sakinləri ulu öndərin tövsiyələrinə layiqincə əməl edirlər. Hər il istifadəyə verilən yeni infrastrukturlar, sosial-mədəni obyektlər, sənayedə və aqrar sahədə əldə olunan uğurlar bunu təsdiqləyir. Ötən əsrin 90-cı illərinin ortalarından başlanan tərəqqi, yüksəliş bu gün də davam etdirilir. Rayonun 45-dən artıq yaşayış məntəqəsi yeniləşən kəndlər siyahısına daxil edilib.

Ötən il rayonun sosial-iqtisadi həyatının bütün sahələrində müsbət irəliləyişlər müşahidə olunub. İl ərzində tikinti-quruculuq işlərində istifadə olunan investisiyanın həcmi 73 milyon 571,2 min manat təşkil edib, rayonda istehsal olunan sənaye məhsullarının həcmi əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 92 milyon 193,3 manata çatdırılıb. Rayon iqtisadiyyatının aparıcı sahəsi olan kənd təsərrüfatında da müsbət irəliləyişlər qeydə alınıb. Bu sahədən əldə edilən gəlir 140 milyon 477,2 manat olub. Makroiqtisadi göstəricilər rayonun həm iqtisadi, həm də sosial sahələrinin daha dinamik və sürətlə inkişaf etdiyini göstərir.

Bu inkişaf cari ildə də davam edir. Bu il fevral ayının 1-də Ərəbyengicə kəndində yeni sosial obyektlər istifadəyə verilib. Hazırda Kosacan, Kərimbəyli və İbadulla kəndlərində müasir infrastruktur formalaşdırılır. Bütün bunlar xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq siyasətinin uğurlarıdır.

Görkəmli dövlət xadiminin anadan olmasının 95-ci ildönümü münasibətilə mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbərin İcra Hakimiyyətinin qarşısındakı əzəmətli abidəsi önünə gələrək ümummilli liderə, onun əbədiyaşar siyasətinə sadiq olduqlarını bir daha nümayiş etdirib, abidə önünə tər qərənfillər düzüblər.

Axşamüstü isə Şərur şəhərindəki Heydər Parkında rayonun mədəniyyət işçilərinin iştirakı ilə geniş konsert olub.

## Babək rayonu



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü Babək rayonunda da yüksək əhval-ruhiyyə ilə qeyd edilib. Mayın 10-da Babək rayon ictimaiyyəti, idarə, müəssisə və təşkilatların kollektivləri dahi şəxsiyyətin rayon mərkəzindəki abidəsini ziyarət edib, önünə tər gül dəstələri qoyublar.

Dahi rəhbərin təşəbbüsü ilə 1978-ci il oktyabrın 23-də təşkil olunan Babək rayonu da muxtar respublikamızın digər bölgələri kimi bu gün öz müasir görkəmi ilə diqqəti cəlb edir. Totalitar sovet rejimi dövründə rayona Babək kimi bir xalq qəhrəmanının adının verilməsi ulu öndərin siyasi iradəsinin və milli tarixi ənənələrə böyük bağlılığın nəticəsi idi. Müstəqillik illərindən başlayaraq rayon mərkəzi də daxil olmaqla, kənd yaşayış məntəqələrində yaradılmış infrastruktur, tikilən və yaxud yenidən qurularaq istifadəyə verilmiş inzibati və yaşayış binaları, təhsil, səhiyyə, mədəniyyət müəssisələri, yeni park və istirahət mərkəzləri Heydər Əliyev siyasi xəttinin rayon sakinlərinə bəxş etdiyi töhfələrdir. Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 fevral tarixli Sərəncamı, bu dövlət sənədinin icrası ilə bağlı keçirilən tədbirlər, aparılan quruculuq və abadlıq işləri rayon sakinlərində əsl bayram əhval-ruhiyyəsi yaradıb. Bütün bunları ümummilli liderin ölməz ideyalarının uğurlu davamı kimi qiymətləndirən rayon sakinləri ulu öndəri minnətdarlıqla xatırlayıb dahi rəhbərin rayon mərkəzindəki abidəsini ziyarət edib, Onun xatirəsinin ürəklərdə daim yaşadığını bir daha nümayiş etdirdilər.

Həmin gün Babək qəsəbəsindəki mərkəzi meydanda rayon mədəniyyət evinin musiqiçilərinin təqdim etdiyi rəngarəng konsert proqramı rayon sakinlərinə bayram əhval-ruhiyyəsi bəxş edib.

* * *

## Ordubad rayonu

Ümummilli liderimiz Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad rayonu bu gün öz inkişafının yeni müstəvisindədir. Görkəmli dövlət xadimi ölkəmizə rəhbərliyinin hər iki dövründə bu rayona böyük diqqət və qayğı göstərib. Ancaq sovet dönəminin son illərində bütün bölgələrimiz kimi, Ordubad rayonu da baş verən hadisələrdən sığortalana bilmədi. Ölkədə tüğyan edən anarxiya, xaos, özbaşınalıq Ordubadın da qaynar həyatını pozdu. Yaranan sosial-iqtisadi çətinliklər ordubadlıları sıxsa da, onlar doğma yurd yerindən üz döndərmədilər. Vətən, torpaq təəssübü hər şeyə üstün gəldi. Çünki onlar hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanırdılar. Və bu inamlarında yanılmırdılar. Bu ziya xalqımızın



ümummilli lideri Heydər Əliyev idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ulu öndər öz fəaliyyəti ilə bu bölgəni də əvvəlki həyat ritminə qaytardı.

Böyük inkişaf və yeni tərəqqi müstəvisində olan Ordubadda son illərdə həyatın bütün sahələrində güclü yeniləşmə diqqəti çəkir. Bu dövrdə rayonun kəndlərində kompleks quruculuq tədbirləri aparılıb. Ordubad şəhərində qaçqın ailələri üçün hər cür şəraiti olan mənzillər inşa edilib. Qarabağ əlilləri, şəhid ailələri də bu qayğıdan yararlanıb. Rayondakı tarixi-memarlıq abidələrinə ilkin quruluşu saxlanılmaqla onlara yeni həyat bəxş olunub.

Quruculuq tədbirləri cari ildə də rayonda davam etdirilir. Ordubad şəhərində İcra Hakimiyyətinin, şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, rabitə şöbəsinin binaları yenidən qurulur, muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən biri olan Dəstə kəndində kompleks quruculuq tədbirləri çərçivəsində yeni məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün yeni binalar inşa olunur.

Saatbasaat dəyişən, gözəlləşən Ordubad bu gün ayrı büsatdadır. Bu, ümummilli liderimiz Heydər Əliyev siyasətinə sadiqliyin ifadəsidir. Ordubadlılar inanırlar ki, Heydər Əliyev siyasəti yaşadıqca ölkəmiz, onun ayrılmaz tərkib hissələrindən biri olan Ordubad daha böyük uğurlara imza atacaq.

May ayının 10-da rayon sakinləri görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Ordubad Rayon Mədəniyyət Evində ulu öndərin həyat və siyasi fəaliyyətinə həsr olunmuş filmə baxıblar.

Axşamçağı rayonun “Gənclik” parkındakı xalq gəzintisi zamanı Ordubad Rayon Mədəniyyət Evinin “Dübəndi” instrumental ansamblı rayon sakinləri qarşısında rəngarəng musiqi nömrələri ilə çıxış edib.

* * *

## Culfa rayonu



***Müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü Culfada da qeyd olunub. Rayon ictimaiyyətinin nümayəndələri ulu öndərin Culfa şəhərinin mərkəzində ucalan abidəsi önünə gələrək gül dəstələri düzüblər.***

Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürən ulu öndər Heydər Əliyev Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqının köməyinə çatıb, zamanın ağır məngənəsindən onu xilas edib. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə irəliləməsi ümummilli liderimizin uzaqgörən siyasəti və yorulmaz fəaliyyəti sayəsində mümkün olub.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə Culfa rayonunda bütün sahələrin inkişaf etdirilməsi diqqətdə saxlanılıb, müsbət nəticələr əldə edilib. Ötən əsrin sonlarında dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda torpaq islahatları ilk dəfə Culfa rayonunun kəndlərində aparılıb, nəticədə, kəndli əkib-becərdiyi torpağın sahibinə çevrilib.

Naxçıvan Muxtar Respublikasında da ümummilli liderin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində qədim tarixə və mədəniyyətə malik olan Culfa rayonu da bu gün özünün inkişaf dövrünü yaşayır. Bu yeni inkişaf mərhələsində rayonun kənd yaşayış məntəqələrinin böyük əksəriyyətində kompleks quruculuq işləri aparılıb, onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Görülən bütün işlər rayon sakinlərinin rahat şəraitlə təmin olunmasına zəmin yaradıb, onları ümummilli lider Heydər Əliyev ideyaları ətrafında daha sıx birləşməyə sövq edib. Culfalılar onlara bu xoşbəxt günləri bəxş edən ümummilli liderimizin misilsiz xidmətlərini unutmurlar.

Dünən ümummilli liderin anadan olmasının 95-ci ildönümü münasibətilə Culfa rayonunun Mədəniyyət və İstirahət Parkında xalq gəzintisi və rayon Mədəniyyət Evinin özfəaliyyət kollektivinin konserti də xoş ovqat və bayram əhval-ruhiyyəsi ilə yaddaqalan olub.

## Kəngərli rayonu

***Görkəmli dövlət xadimi Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanın taleyi etibarlı əllərdədir və qurulan möhkəm təməl, aparılan uğurlu siyasət müstəqilliyimizin sarsılmazlığına tam təminat verir.***



Ümummilli liderin ideyalarının bəhrələrini Naxçıvan Muxtar Respublikasının timsalında da aydın görmək olar. Dahi şəxsiyyətin xalqımızın tərəqqisi naminə irəli sürdüyü inkişaf konsepsiyası, irimiqyaslı proqramlar muxtar respublikada uğurla həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il martın 19-da Kəngərli rayonunun yaradılması haqqında imzaladığı Azərbaycan Respublikasının Qanunu göstərilən qayğının və həyata keçirilən tədbirlərin davamıdır. Yeni rayonun yaradılması yüzlərlə yeni iş yerinin açılmasına, bölgə iqtisadiyyatının gücləndirilməsinə, ailələrin məskunlaşmasına şərait yaradıb. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa müddət ərzində muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatıb. Xüsusilə qeyd olunmalıdır ki, rayonun bütün yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri aparılıb, bölgənin kəndləri müasirliyə qovuşub.

Tarix üçün çox qısa bir dövrü əhatə etsə də, ötən illər ərzində burada mühüm infrastruktur layihələri həyata keçirilib, Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verib. Rayon mərkəzində tikilən müasir inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi Kəngərlinin simasına xüsusi yaraşıq verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ötən dövr ərzində Kəngərli rayonunda görülmüş işləri yüksək dəyərləndirib, rayona səfərləri çərçivəsində bir sıra quruculuq ünvanlarının açılışında iştirak edib. Fəxrlə demək olar ki, Kəngərli rayonu muxtar respublikamızın ən gənc rayonu olmasına baxmayaraq, qısa müddət ərzində böyük inkişaf yolu keçib. Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərindən öz payını alan bu qədim yurd yeri indi müasirliyi, sosial-iqtisadi uğurları ilə gələcəyə doğru inamla addımlayır. Bütün bunlar ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinin uğurlu bəhrələridir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü Kəngərli rayonunda da geniş qeyd edilib. Rayon ictimaiyyəti, bölgənin müxtəlif idarə, müəssisə kollektivlərinin ulu öndər Heydər Əliyevin əzəmətli abidəsini ziyarət etmələri dahi şəxsiyyətə olan hörmət və ehtiramın növbəti təzahürü olub.

Axşamçağından etibarən Kəngərli Rayon Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında başlayan xalq gəzintisində qələbəlik müşahidə olunub, rayon Mədəniyyət Şöbəsinin “Kəngər” instrumental ansamblının və digər musiqi kollektivlərinin çıxışları alqışlarla qarşılanıb.

* * *

## Şahbuz rayonu

*Mayın 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da geniş qeyd edilib. Rayon ictimaiyyətinin nümayəndələri ulu öndərin Şahbuz şəhərinin mərkəzində ucaldılmış büstü önünə tər gül dəstələri düzüb, görkəmli dövlət xadiminə bir daha öz dərin ehtiramlarını bildiriblər.*



Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Şahbuz rayonunun da iqtisadiyyatı inkişaf etdirilib, tikinti, quruculuq və abadlıq tədbirləri geniş vüsət alıb. Ötən əsrin 70-80-ci illərində rayonda Şərab, Badamlı mineral sular, Avtomobil təmiri zavodları, Naxçıvan şəhərindəki Radio zavodun və Alt Trikotaj Fabrikinin Şahbuz filialları fəaliyyət göstərib. O dövrdə rayonda dərman bitkiləri, dəri, meyvə, süd emalı və yun tədarükü məntəqələrinin də fəaliyyətə başlaması əhalinin məşğulluğunun artırılması və həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradıb.

Ulu öndərin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı dövründə Şahbuz rayonunda da genişmiqyaslı quruculuq işlərinə başlanılıb. Həyata keçirilən abadlıq işləri nəticəsində simasını büsbütün dəyişən rayon təkcə muxtar respublikamızın deyil, ölkəmizin gözəl bölgələrindən birinə çevrilib. Şahbuz qəsəbəsinə şəhər statusu verilib.

Muxtar respublikada ümummilli liderin hərtərəfli inkişaf strategiyasının uğurla davam etdirilməsinin parlaq təzahürünü bu gün Şahbuz rayonunda aydın görmək olar. Bölgə sakinlərini firavan həyata qovuşduran müasir yollar, yeni təhsil və səhiyyə ocaqları, sosial xidmət obyektləri və istehsal müəssisələri ulu öndər Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi siyasətin bəhrələridir.

Dahi öndərin anadan olmasının 95-ci ildönümü münasibətilə Şahbuz Rayon Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında təşkil olunan rayon Mədəniyyət Evinin “Batabat” instrumental ansamblının maraqlı konsert proqramı axşam saatlarınadək davam edib.

*Ardı 4-cü səhifədə*

## Sədərək rayonu

***Ulu öndərin təşəbbüsü ilə Sədərəyin 1990-cı il avqust ayının 28-də muxtar respublikanın inzibati ərazi bölgüsünə rayon kimi daxil olması bölgənin geostrateji mövqeyi ilə bağlı idi. Ulu öndərimizin tövsiyələrinə uyğun olaraq Sədərəyə bu gün də xüsusi diqqət yetirilir.***



Sərhəd bölgəsinin sakinləri ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, sakini olduqları rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Mayın 10-da Sədərək rayonunda da ictimaiyyət nümayəndələri ulu öndərin Heydərabad qəsəbəsinin mərkəzində ucalan büstünü ziyarət edib, önünə gül dəstələri düzərək dahi rəhbərin əziz xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər.

Günün ikinci yarısında Heydərabad qəsəbəsində yerləşən Mədəniyyət və İstirahət Parkında Mədəniyyət Şöbəsinin "Oğuz eli" instrumental ansamblının kollektivi konsert proqramı ilə çıxış edib. Tədbirdə səsləndirilən mahnılar, nümayiş olunan ədəbi-bədii kompozisiya iştirakçılara xoş anlar yaşadıb.

Rayon sakinləri ilə söhbətlərdən belə bir fikir hasil olundu ki, Sədərək rayonunun sürətli inkişafı bu gün mənfur düşmənlərə ən böyük gözdağıdır. Sədərəkdə torpaq həm qorunur, həm də becərilir. Burada son illərdə müasir tələblərə cavab verən onlarla yaşayış evləri, eyni zamanda rayonun idarə, müəssisə və təşkilatları üçün inzibati binalar tikilib. Muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan rayonun Sədərək kəndi də hərtərəfli dövlət qayğısı hesabına bu gün qəsəbə təsiri bağışlayır. Rayonun bir neçə idarə və təşkilatı bu kənddə fəaliyyət göstərir. Onlar üçün son illərdə müasir tələblərə cavab verən yeni tikililər inşa olunub. Bütün bunlar hər bir sədərəklini ruhlandırır, onları torpağa, elə-obaya daha sıx tellərlə bağlayır.

**Xəbərlər şöbəsi**

## "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda interaktiv dərs keçilib



***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın 220 ümumtəhsil məktəbi, eyni zamanda ümummilli liderin adını daşıyan Hərbi Lisey arasında canlı bağlantı yaradılaraq "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda interaktiv dərs keçilib.***

Dərsdə muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycanla bağlıdır. Görkəmli dövlət xadiminin Azərbaycanda ilk dəfə hakimiyyətdə olduğu 1969-1982-ci illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil olub. O illərdə həyatımızın bütün sahələrində misligörünməmiş canlanma baş verib, qısa müddət ərzində Azərbaycan əsrə bərabər inkişaf yolu keçib.

Vurğulanıb ki, ötən əsrin sonlarında Sovetlər Birliyi iflasa uğradıqdan sonra respublikaya naşı adamların rəhbərlik etməsi nəticəsində ölkəmizdə daxili sabitlik pozulub, müstəqilliyimiz üçün ciddi təhlükə yaranıb. Həmin dövr Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi hadisələrin ən mürəkkəb tarixi mərhələsi kimi xarakterizə olunur. Məhz belə bir dövrdə – 1990-cı il iyulun 20-də ulu öndər Heydər Əliyev Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvan torpağına gəlib. Böyük öndərin siyasi fəaliyyətinin Naxçıvan dövründə nəinki Naxçıvan, gələcək müstəqil Azərbaycan dövləti üçün mühüm siyasi əhəmiyyət kəsb edən tarixi qərarlar qəbul edilib.

Ramil Orucəliyev bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev uğrunda illərlə mübarizə apardığı Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən qurtarıb, onun itirilməkdə olan müstəqilliyini qoruyub saxlayıb.



*Şərur şəhər 2 nömrəli tam orta məktəb*



*Ordubad şəhər 3 nömrəli tam orta məktəb*

Azərbaycan dövlətini labüd fəlakətlərdən, hərc-mərclikdən xilas edən dahi şəxsiyyət müstəqilliyimizi qoruyub əbədiləşdirdiyi kimi, xalqımızın xoşbəxt və firavan gələcəyini də təmin edib. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bu siyasi xəttin uğurlu davamının nəticəsidir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf edir, quruculuq obyektlərinin sayı günbəgün artır, əhalinin yaşayış səviyyəsi yüksəlir. Muxtar respublikamızda bu gün özünün sürətli inkişaf dövrünü yaşayır.

Dərsi izləyənlər Heydər Əliyev Muzeyindəki eksponatlarla virtual şəkildə tanış olublar. Muzey haqqında ətraflı məlumat verilərək bildirilib ki, buradakı ekspozisiyada 4 min 678 eksponat nümayiş olunur ki, onun da 27-si bu ilin ötən dövrü ərzində əlavə edilib.

**Nail ƏSGƏROV**

## Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş konsert



*Mayın 10-da Naxçıvan Dövlət Filarmoniyasının yeni yaradılan Simfonik Orkestrinin Heydər Əliyev Muzeyinin qarşısında keçirilən konserti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunub.*

Orkestrin ilk konserti dahi bəstəkarımız Üzeyir Hacıbəyovun "Koroğlu" operasının üverturasının sədaları ilə başlayıb. Elvin Əliyarovun dirijorluq etdiyi, xormeysteri Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mahirə Əsgərova, baletmeysteri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov olan orkestrin ifası alqışlarla qarşılanıb.

Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov xorla birlikdə Müslüm Maqomayevin "Azərbaycan" mahnısını ifa etdikdən sonra konsertdə xanəndə və müğənnilərin ifasında görkəmli bəstəkarımız Ramiz Mirişlinin "Naxçıvan təranəsi" səslənib. Bu ifalar tamaşaçılarda xoş ovqat yaradıb.

Konsertdə Azərbaycan Respublikasının Əməkdar artistləri Mübariz Əsgərovun ifasında "Evləri var xana-xana" xalq mahnısı və onun Gülyanaq Fərzəliyeva ilə birlikdə səsləndirdikləri "Arşın mal alan" operettasından "Gülçöhrə və Əsgərin dueti" musiqimizin zənginliyini göstərirdi.

Konsertdə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyev "Vətən nəğməsi"ni, Azərbaycan Respublikasının Əməkdar artisti Vilayət İsmayılov "Dilkəş" təsnifini, gənc müğənni İlkin Abdullayev Cahangir Cahangirovun "Ana yurdum" mahnısını ifa ediblər.

İlkin Abdullayevin ifa etdiyi "Heydər – Xalq", Eldar Mansurovun "İlhamla sabaha" mahnıları alqışlarla qarşılanıb.

Konsert Eldar Mansurovun "Odlar yurdu" melodiyasının sədaları altında rəqs kollektivinin ifası ilə başa çatıb.

Simfonik orkestrin ilk konserti Naxçıvan şəhərinin sakinləri və şəhərimizin qonaqları tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

## "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalı başa çatıb

*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalına yekun vurulub.*





9 turdan ibarət olan festivalda 300-dən çox zəka sahibi "A", "B" və "C" qruplarında iştirak ediblər. Festivalda 15 ölkənin – Ukrayna, Belarus, İsrail, Hollandiya, Almaniya, İspaniya, İran, Belçika, Yunanıstan, Türkiyə, Rusiya, Gürcüstan, Portuqaliya, Qazaxıstan və Azərbaycanın şahmatçıları ağ-qara taxtada mübarizə aparıblar.

Dünən Naxçıvan şəhərindəki Şahmat Mərkəzində festivalın qaliblərini mükafatlandırma mərasimi olub. Tədbirdə festivalın baş hakimi Faiq Həsənov çıxış edərək şahmatçılara yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığını bildirib.

Sonra 146 şahmatçının mübarizə apardığı "C" qrupunda 6 yaş qrupu üzrə qaliblər mükafatlandırılıb. Belə ki, 8, 10 və 12 yaşlı oğlanların mübarizəsində müvafiq olaraq Murad Mehtizadə (Bakı), Əhmədağa Həşimov (Bakı), Əli Zuqanov (Bakı), qızların mübarizəsində isə Səlbinaz İsmayılova (Bakı), Lalə Hüseynova (Bakı) və Aydan Şükürova (Bakı) qalib adını qazanıblar. Ümumilikdə, "C" qrupunun qalibi 8 xalla Əli Zuqanov olub.

Tədbirdə yarışda yaxşı nəticə göstərmiş ən kiçikyaşlı şahmatçı Əli Qarayev (Naxçıvan) də mükafatlandırılıb.

"B" qrupunda isə turnir cədvəlinin liderləri eyni xal toplayıblar. Belə ki, Ağdam şahmatçısı Fariz Əhmədov (2146) son turda məğlub olmasına baxmayaraq, liderliyi əldən verməyib. Sumqayıt şahmatçısı Uğur İlyaslı (2095) ikinci, Bakı şahmatçısı Şahin Hüseynov (2182) isə 7 xalla üçüncü olub. Bu qrupda naxçıvanlı şahmatçılardan ən yaxşı nəticəni Sadiq Qarayev (1530) göstərərək (6 xal) mükafatçılar sırasına düşməyi bacarıb.

58 zəka sahibinin mübarizə apardığı "A" qrupunda qalib adını qrossmeyster Nicat Məmmədov (2602) qazanıb. Son turda azərbaycanlı zəka sahibi hollandiyalı qrossmeyster Sergey Tiviyakovla xalları yarı bölüb. Hər iki şahmatçının 6,5 xalı olmasına baxmayaraq, Nicat Məmmədov göstəricilərinə görə rəqibini qabaqlayıb. Digər pillələrdə qərarlaşan Eltac Səfərli, Qədir Hüseynov, İqor Xenkin, Anton Korobov, Ehsan Qaem Məqami, Orxan Abdulov və Pak Yevgeni də mükafatlandırılıblar.

Naxçıvanlı zəka sahibi, qrossmeyster Urfan Sevdimalıyev ən yaxşı nəticə göstərən şahmatçı kimi mükafata layiq görülüb. Həmçinin digər təmsilçimiz, FİDE ustası Sadiq Məmmədov beynəlxalq usta, azərbaycanlı FİDE ustası Aydan Höcətova isə qrossmeyster normasını (bir hissəsini) uğurla başa vurublar.

"A" qrupunda 18 yaşa qədər şahmatçılar arasında ən yaxşı nəticəni göstərən beynəlxalq usta Vüqar Əsədliyə xüsusi mükafat təqdim olunub.

Sonda çıxış edən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikasında artıq 8 ildir, şahmat festivalı keçirilir. Bu qədim diyarda dahi şəxsiyyətin anadan olmasının ildönümünə həsr olunmuş Beynəlxalq Şahmat festivallarının keçirilməsi böyük məna və əhəmiyyət kəsb edir. 2011-ci ildən etibarən keçirilən şahmat festivalları dünyanın müxtəlif ölkələrindən gəlmiş şahmatçılar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə,onların böyük yarış təcrübəsi əldə etməsinə şərait yaradıb.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalını bağlı elan edən Vüqar Səfərov maraqlı və çətin mübarizə şəraitində keçən şahmat yarışının iştirakçılarına və qaliblərini təbrik edib, bu mötəbər yarışın təşkilatçılarına öz dərin minnətdarlığını bildirib.

*Bununla da, "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalı başa çatıb.*

**Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 348